**“Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması Qaydası”nın, “Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün təhlükəsizliyini təsdiq edən müvafiq sənədlə müşayiət edilməli olan qida və yem məhsullarının Siyahısı”nın təsdiq edilməsi və “Yeyinti məhsullarına verilən qida təhlükəsizliyi sertifikatının forması və verilmə Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 iyul tarixli 302 nömrəli Qərarının ləğv edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. “Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün təhlükəsizliyini təsdiq edən müvafiq sənədlə müşayiət edilməli olan qida və yem məhsullarının Siyahısı” təsdiq edilsin (əlavə olunur).

3. “Yeyinti məhsullarına verilən qida təhlükəsizliyi sertifikatının forması və verilmə Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 iyul tarixli 302 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1636; 2019, № 12, maddə 1201) ləğv edilsin.

4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 7 dekabr 2023-cü il
№ 442

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 7 dekabr tarixli 442 nömrəli
Qərarı ilə
**təsdiq edilmişdir.**

**Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması**

**QAYDASI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 20.6-cı, 20.8-ci, 20.11-ci, 20.12-ci, 21.4-cü və 31.3-cü maddələrinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların (bundan sonra – qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar) idxalı qaydasını, qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin formasını və təqdim edilmə müddətlərini, qida və yem məhsullarının tranzit daşıması qaydasını müəyyən edir.

1.2. Bu Qaydanın məqsədi Azərbaycan Respublikasına gətirilən, həmçinin Azərbaycan Respublikasının ərazisindən tranzitlə daşınan qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullara qida təhlükəsizliyi baxımından nəzarətin təmin edilməsi yolu ilə insanların və heyvanların həyat və sağlamlığının (bundan sonra - həyat və sağlamlıq) qorunmasını və istehlakçıların hüquqlarının müdafiəsini təmin etməkdir.

1.3. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən risklərin qiymətləndirilməsi nəticələri əsasında dövlət nəzarəti tədbirləri bu Qaydaya uyğun həyata keçirilir.

1.4. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.4.1. **idxal əməliyyatı tarixçəsi** – idxal edilən hər məhsul növünə (xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə) münasibətdə, idxalatçı və istehsal və ya emal obyekti də nəzərə alınmaqla tətbiq edilmiş nəzarət tədbirlərinin nəticələrinə dair məlumatların məcmusu;

1.4.2. **müsbət idxal əməliyyatı tarixçəsi** – bu Qaydanın 8.5-ci bəndində nəzərdə tutulmuş qaydada fiziki nəzarət tədbiri nəticələrinin uyğunluğu halı;

1.4.3. **risk** - qida və yem məhsulunun həyat və sağlamlığa mənfi təsir ehtimalı və həmin təsirin ağırlıq dərəcəsi;

1.4.4. **risk balı** - risk səviyyəsinin artan rəqəmlə ifadə olunan göstəricisi.

1.5. Bu Qaydada istifadə olunan digər anlayışlar Qanunda və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulan mənaları ifadə edir.

## 2. Qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların idxalına dair tələblər

2.1. İdxal olunan qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar Qanunla müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

2.2. Qanunun 24.5-ci maddəsinə əsasən müəyyən edilən qida və yem məhsullarının Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün həmin məhsulların istehsal və emal edildiyi qida obyektləri Agentlik tərəfindən həmin maddəyə uyğun olaraq təsdiq edilməlidir və ya Qanunun 20.5-ci maddəsinə əsasən təsdiq sisteminin ekvivalentliyi tanınan ölkənin səlahiyyətli qurumu tərəfindən qida obyektlərinin təsdiq olunmasına dair müvafiq rəsmi məlumatlar olmalıdır.

2.3. Qanunun 20.6-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş siyahıya əsasən müəyyən edilmiş qida və yem məhsullarının Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün həmin məhsullar onların təhlükəsizliyini təsdiq edən ixracatçı ölkənin qanunvericiliyinə uyğun olaraq verilmiş müvafiq sənədlə müşayiət olunmalıdır.

2.4. Qanunun 25.1-ci maddəsində qeyd edilən məhsulların idxal edilməsi üçün həmin məhsullar qeydiyyata alınmış

olmalıdır.
2.5. Qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulları idxal etmək istəyən idxalatçı və ya onun səlahiyyətli nümayəndəsi həmin məhsullar gömrük ərazisinə gətirilməzdən əvvəl Agentliyə bu Qaydanın 3.1-ci bəndinə uyğun olaraq elektron bildiriş göndərməlidir.
2.6. Azərbaycan Respublikasına idxal olunan qida və yem məhsulları qanunla və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun etiketlənməlidir. Məhsulların üzərindəki etiketlər və adlar, məhsulun tərkibi və istifadəyə yararlılıq müddəti, məhsuldan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərdə olduqda, onların Azərbaycan dilinə tərcüməsi də təmin edilməlidir.
2.7. Agentlik ixracatçı ölkələrdə yayılmış xəstəliklərdən və həmin xəstəliklərin həyat və sağlamlığa yaratdığı təhlükə riskinin səviyyəsindən asılı olaraq həmin ölkələrdən idxal olunan qida və yem məhsullarına münasibətdə fərqli tələblər müəyyənləşdirir və ya xarici ölkələrdə xüsusi təhlükəli xəstəliklər qeydə alındıqda həmin ölkələrdən qida və yem məhsullarının idxalının dayandırılması və ya məhdudlaşdırılması ilə bağlı qərar qəbul edir. Bu barədə məlumat dərhal gömrük orqanlarına təqdim edilməlidir.
2.8. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunan və ya tranzit daşınan dövlət baytarlıq nəzarətində olan məhsullar “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verməlidir.
2.9. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunan və ya tranzit daşınan fitosanitar nəzarətində olan məhsullar “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verməlidir.

### 3. Qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron bildirişin göndərilməsi

3.1. İdxalatçı və ya onun səlahiyyətli nümayəndəsi idxal, o cümlədən təkrar idxalı nəzərdə tutulan məhsullar Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməzdən əvvəl bu Qaydanın 3.2-ci bəndində qeyd edilən müddətdə məhsullar barədə “Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi” İnformasiya Sistemi (AQTİS) vasitəsilə bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formaya uyğun elektron qaydada bildiriş göndərməlidir.
3.2. Elektron bildiriş məhsullar Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməzdən əvvəl aşağıdakı müddətlərdə göndərilməlidir:
3.2.1. avtomobil, dəniz və dəmir yolu ilə gətirildikdə - nəqliyyat vasitəsinin Azərbaycan Respublikasının gömrük ərazisinə çatmasından ən azı 24 saat əvvəl;
3.2.2. hava yolu ilə gətirildikdə - nəqliyyat vasitəsinin ixracatçı ölkənin hava limanından yola düşməsindən ən azı 12 saat əvvəl.
3.3. Elektron bildirişin bu Qaydanın 3.2-ci bəndində göstərilən müddətdə göndərilməməsi bu Qaydanın 3.6-cı bəndində nəzərdə tutulan hal istisna olmaqla qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların gömrük sərhədindən keçirilməsinə mane olmur.
3.4. Bu Qaydanın 3.3-cü bəndində nəzərdə tutulan halda qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar gömrük sərhəddindən keçirildikdən sonra gömrük rəsmiləşdirilməsinin aparılması üçün həmin məhsullara dair idxalatçı və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən elektron bildiriş təqdim edilməlidir.
3.5. Elektron bildirişdə aşağıdakılar barədə məlumatlar öz əksini tapmalıdır:
3.5.1. idxalatçı hüquqi şəxs olduqda hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı, hüquqi ünvanı və fəaliyyət ünvanı (hüquqi ünvanından fərqli olduqda), elektron poçt ünvanı və əlaqə telefonları, VÖEN, qeydiyyatına və ya təsdiqinə dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın nömrəsi;
3.5.2. idxalatçı fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumat, fəaliyyət ünvanı (hüquqi ünvanından fərqli olduqda), elektron poçt ünvanı və əlaqə telefonları, VÖEN, qeydiyyatına və ya təsdiqinə dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın nömrəsi;
3.5.3. idxalatçının bildirişi göndərən səlahiyyətli nümayəndəsi olduqda onun barədə məlumat (soyadı, adı, atasının adı və qeydiyyat ünvanı, elektron poçt ünvanı, əlaqə telefonları);
3.5.4. ixracatçı ölkə;
3.5.5. ixracatçının adı və ünvanı;
3.5.6. dövlət sərhədindən buraxılış məntəqəsi və gömrük rəsmiləşdirilməsinin aparılacağı yer;
3.5.7. məhsulun gömrük ərazisinə çatmasının nəzərdə tutulan tarixi;
3.5.8. məhsulun yüklənmə ünvanı və boşaldılacağı ünvan;
3.5.9. məhsulun daşındığı nəqliyyat vasitəsinin növü və qeydiyyat nömrəsi (o cümlədən qoşqunun);
3.5.10. Qanunun 20.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün məhsulların istehsal və emal edildiyi qida obyektlərinin təsdiq olunmasına dair məlumat;
3.5.11. idxal və ya təkrar idxal olması barədə məlumat;
3.5.12. bu Qaydanın 4.2-ci bəndində nəzərdə tutulmuş sənədlərə dair məlumat;
3.5.13. məhsul haqqında məlumatlar:
1. məhsulun növü (xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodu üzrə);
2. adı (əmtəə nişanı);
3. Qanunun 25.1-ci maddəsinə uyğun olaraq qeydiyyatı tələb olunan məhsulların qeydiyyat nömrəsi;
4. partiya nömrəsi;
5. qablaşdırmanın növü və sayı;
6. çəkisi (xalis və qablaşdırma);
7. istehsal tarixi və son istifadə tarixi;
8. yararlılıq müddəti;
9. istehsalçının adı, istehsal və ya emal obyektinin ünvanı və tələb olunduqda təsdiq nömrəsi;
10. daşınma və saxlanma şəraiti;
11. istifadə təyinatı;
12. məhsulun mənşə ölkəsi;
13. Azərbaycan dilində etiketin mövcudluğu barədə məlumat.
3.6. Agentlik xarici ölkələrdə xüsusi təhlükəli xəstəliklərin qeydə alınması ilə əlaqədar həmin ölkələrdən qida və yem məhsullarının idxalının dayandırılması və ya məhdudlaşdırılması barədə qərar qəbul edir, elektron bildiriş göndərən idxalatçını və ya onun səlahiyyətli nümayəndəsini, habelə gömrük orqanını idxaldan imtina barədə real vaxt rejimində məlumatlandırır.
3.7. Agentlik bu Qaydanın 2.2-ci və 2.4-cü bəndləri nəzərə alınmaqla qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların gömrük sərhədindən keçirilməsini təmin etmək məqsədilə həmin məhsullar üzrə məlumatları real vaxt rejimində gömrük orqanına göndərir.
3.8. Gömrük orqanları qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların gömrük rəsmiləşdirilməsini həmin məhsullar üzrə Agentlik tərəfindən real vaxt rejimində göndərilən məlumatları əldə etdikdən sonra təmin edir.
3.9. Elektron bildirişdə yazı və hesab zamanı yol verilmiş aşkar və düzəldilməsi mümkün olan səhvlərin aradan qaldırılması üçün “Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi” İnformasiya Sistemində (AQTİS) müvafiq imkan yaradılır.

### 4. İdxal sağlamlıq aktının alınması üçün müraciət

4.1. İdxalatçı tərəfindən Qanunun 31.7-ci maddəsində nəzərdə tutulmuş idxal sağlamlıq aktının alınması üçün “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə uyğun olaraq bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş qaydada elektron bildiriş əsasında Agentliyə müraciət olunmalıdır.
4.2. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla müraciətə aşağıdakı sənədlər əlavə edilməlidir:

4.2.1. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1-18.2.3-cü maddələrində nəzərdə tutulmuş sənədlər;

4.2.2. Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların tövsiyələrinə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə əsasən tərtib olunmuş, yaxud olduğu halda ayrı-ayrı ölkələrlə qarşılıqlı razılaşdırılmış nümunəvi formalara uyğun ixracatçı ölkənin səlahiyyətli orqanı tərəfindən baytarlıq və fitosanitar nəzarətinə aid məhsullara verilmiş müvafiq olaraq baytarlıq və fitosanitar sertifikatları, habelə bu Qaydanın 2.3-cü bəndinə əsasən tələb olunduğu halda, qida və yem məhsullarına verilmiş təhlükəsizliyini təsdiq edən müvafiq sənədlər;

4.2.3. məhsulların mənşə ölkəsini təsdiq edən sertifikat;

4.2.4. alqı-satqı müqaviləsi;

4.2.5. məhsula dair hesab-faktura (invoys);

4.2.6. istehlakçı üçün məhsul və istehsalçı barəsində informasiya verən etiketin nümunəsi;

4.2.7. bildiriş idxalatçının səlahiyyətli nümayəndəsi vasitəsilə təqdim edildikdə, həmin nümayəndənin səlahiyyətini təsdiq edən müvafiq sənəd.

4.3. Bu Qaydanın 4.2.2–4.2.5-ci yarımbəndlərində qeyd edilən sənədlər Azərbaycan, türk, ingilis və ya rus dillərində olmalı, başqa dildə olduğu halda Azərbaycan dilinə notarial qaydada təsdiq olunmuş tərcüməsi ilə müşayiət olunmalıdır.

## 5. İdxal olunan məhsullar üzərində dövlət nəzarəti

5.1. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullara Agentlik tərəfindən aşağıdakı nəzarət tədbirləri həyata keçirilir:

5.1.1. qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə icazə verilməsi üçün əsas olan və idxal olunmuş məhsul partiyasını müşayiət edən bu Qayda ilə müəyyən olunan sənədlərin, sertifikatların və digər hüquqmüəyyənedici sənədlərin mövcudluğunun və düzgünlüyünün yoxlanılması (bundan sonra - sənəd nəzarəti);

5.1.2. idxal olunmuş qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların partiyasının tərkibinin, etiketinin, daşındığı nəqliyyat vasitəsinin həmin məhsula verilən sertifikatlarda, sınaq aktında və digər sənədlərdə qeyd edilən məlumatlarla eyniliyinin və uyğunluğunun yoxlanılması (bundan sonra - eynilik nəzarəti);

5.1.3. idxal olunmuş qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların nümunəsinin sınağı, onu daşıyan nəqliyyat vasitəsinin, saxlanma temperaturunun və Qanuna uyğun olaraq müəyyən edilmiş digər göstəricilərin yoxlanması (bundan sonra - fiziki nəzarət).

5.2. Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş bütün qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullara sənəd nəzarəti, risk səviyyəsindən asılı olaraq bu Qaydanın 8-ci hissəsinə əsasən müəyyən edilmiş dövriliyə uyğun olaraq eynilik nəzarəti və fiziki nəzarət həyata keçirilir.

5.3. Sənəd, eynilik və fiziki nəzarət tədbirləri Qanunun 38.4-cü maddəsinə uyğun olaraq Agentlik tərəfindən gömrük rəsmiləşdirilməsinin aparıldığı gömrük sahəsində yerləşən qida təhlükəsizliyi nəzarəti məntəqələrində və ya idxalatçıların məhsullarının saxlanc yerlərində həyata keçirilir.

## 6. Sənəd nəzarəti

6.1. Sənəd nəzarəti Agentlik tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilmiş bütün məhsul partiyalarına münasibətdə həyata keçirilir.

6.2. Sənəd nəzarəti zamanı aşağıdakılar yoxlanılır:

6.2.1. bu Qaydanın 4.2-ci bəndində nəzərdə tutulmuş sənədlərin mövcudluğu və düzgünlüyü;

6.2.2. bu Qaydanın 4.2-ci bəndində nəzərdə tutulmuş sənədlərdə əks olunan məlumatların idxaldan əvvəl göndərilən elektron bildirişdə nəzərdə tutulan məlumatlara uyğunluğu;

6.2.3. Qanunun 25.1-ci maddəsinə uyğun olaraq qeydiyyatı tələb olunan məhsulların qeydiyyatdan keçməsini təsdiq edən sənədin mövcudluğu və düzgünlüyü;

6.2.4. Qanunun 20.3-cü maddəsinə əsasən məhsulların istehsal və emal edildiyi qida obyektlərinin təsdiq olunmasına dair sənədin mövcudluğu və düzgünlüyü.

## 7. Eynilik və fiziki nəzarət

7.1. Eynilik və fiziki nəzarət Agentlik tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilmiş məhsul növünün risk səviyyəsindən asılı olaraq bu Qaydanın 7.2-ci bəndi nəzərə alınmaqla, bu Qaydanın 8-ci hissəsinə əsasən müəyyən edilmiş dövriliyə uyğun həyata keçirilir.

7.2. Təhlükə riski ilə bağlı barəsində beynəlxalq təşkilatlardan, xarici dövlətlərdən, hüquqi və fiziki şəxslərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından rəsmi müraciətlər (məlumatlar) daxil olan, habelə mediada məlumatlar yayılan, həmçinin təkrar idxal olunmuş və ya eyni istehsal obyektinin eyni məhsul növü ilə bağlı sonuncu fiziki nəzarət nəticələri uyğunsuz olan bütün məhsul növləri eynilik və fiziki nəzarət tədbirlərinə cəlb olunur.

7.3. İdxalatçı və ya onun səlahiyyətli nümayəndəsi fiziki və eynilik nəzarətinə cəlb olunan məhsullar üzərində nəzarət həyata keçirilərkən yükün tam və ya qismən boşaldılmasını və nəzarət tədbirləri üçün bu Qaydanın 7.7-ci bəndində nəzərdə tutulmuş qaydada nümunələrin götürülməsini təmin etməlidir.

7.4. Eynilik nəzarəti zamanı idxal olunmuş qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullarının partiyasının tərkibi, etiketi, o cümlədən etiketin Azərbaycan dilində mövcudluğu, çəkisi, miqdarı, daşındığı nəqliyyat vasitəsi də daxil olmaqla eynilik göstəricilərinin bu Qaydanın 4.2-ci bəndində nəzərdə tutulan sənədlərdə qeyd edilən məlumatlarla eyniliyi və uyğunluğu yoxlanılır.

7.5. Fiziki nəzarət zamanı idxal olunmuş qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar ilə bağlı aşağıdakılar yoxlanılır:

7.5.1. laboratoriya tədqiqinə (sınağına), habelə sadə fiziki-kimyəvi sınaqlara (pH-ın təyini, nitratın təyini və s.) cəlb edilməsi yolu ilə təhlükəsizlik, minimum keyfiyyət göstəriciləri və orqanoleptik xüsusiyyətləri;

7.5.2. saxlanma və daşınma şəraiti;

7.5.3. qablaşdırma materialının məhsulun təhlükəsizliyini və minimum keyfiyyətini qorumasının səviyyəsi;

7.5.4. məhsulların yararlılıq müddətinin ötüb-ötməməsi.

7.6. Məhsullar laboratoriya tədqiqinə (sınağına) cəlb edildikdə, müayinələrin nəticələri müəyyən edilənədək həmin məhsullar müvafiq saxlanma şərtləri gözlənilməklə nəzarətin həyata keçirildiyi yerlərdə saxlanılır. Məhsulların boşaldılması və saxlanması xərcləri idxalatçı və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən ödənilir.

7.7. Məhsullar laboratoriya tədqiqinə (sınağına) cəlb edildikdə, təhlükəsizlik və minimum keyfiyyət göstəricilərinin müəyyən edilməsi məqsədilə Agentliyin mütəxəssisləri tərəfindən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada və miqdarda idxal edilən məhsul partiyasından nümunələr götürülərək “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada akkreditasiyadan keçmiş laboratoriyalarda onların tədqiqi (sınağı) aparılır.

7.8. Nümunələrin götürülməsi üçün qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda nəzərdə tutulmuş metodlardan istifadə edilir.

7.9. Bu Qaydanın 7.8-ci bəndində nəzərdə tutulan metodların tətbiqi mümkün olmadıqda və ya belə texniki normativ hüquqi aktlar mövcud olmadıqda, Azərbaycan Respublikasının digər sahələrə aid texniki normativ hüquqi aktlarında nəzərdə tutulmuş məhsul nümunələrinin götürülməsi metodları tətbiq edilir. Əgər bu metodların da tətbiqi mümkün olmadıqda və ya belə texniki normativ hüquqi aktlar mövcud olmadıqda, Azərbaycan Respublikasının üzv olduğu müvafiq

beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilmiş metodlardan istifadə edilir.

7.10. Nümunələrin laboratoriya tərəfindən sınağı ilə bağlı xərclər idxalatçının vəsaiti hesabına həyata keçirilir.

7.11. Nümunələrin tədqiqi (sınağı) idxalatçının seçiminə uyğun olaraq “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada akkreditasiyadan keçmiş laboratoriyalarda və ya Agentliyin tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında həyata keçirilir.

7.12. Fiziki nəzarət çərçivəsində nümunələrin tədqiqi (sınağı) Agentliyin tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında aparıldığı halda, nümunənin tədqiqi (sınağı) yalnız idxalatçı tərəfindən məhsulun ekspertizası üçün müvafiq xidmət haqqı ödənildikdən sonra təmin edilir.

7.13. Məhsulların laboratoriyalar tərəfindən 7 (yeddi) iş günü müddətində tədqiqi (sınağı) aparılaraq nəticəsi Agentliyə təqdim edilir. Laboratoriyaların əsaslandırılmış müraciəti ilə həmin müddət 20 (iyirmi) gündən çox olmayan müddətə uzadıla bilər və qeyd edilən müddət idxal sağlamlıq aktının verilməsi ilə bağlı bu Qaydanın 10.7-ci bəndində nəzərdə tutulan müddətə daxil edilmir.

## 8. Risk səviyyəsindən asılı olaraq eynilik və fiziki nəzarət dövriliyinin müəyyənləşdirilməsi

8.1. Risk səviyyəsindən asılı olaraq məhsullar bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun olaraq risk balı üzrə təsnifləşdirilir.

8.2. İdxal edilmiş hər məhsul növünə münasibətdə idxalatçı və istehsal və ya emal obyekti də nəzərə alınmaqla idxal əməliyyatı tarixçəsi formalaşdırılır.

8.3. İdxal əməliyyatı tarixçəsi məhsul növünün hər bir idxalatçısı, istehsal və ya emal obyektinə münasibətdə, o cümlədən aşağıda qeyd edilən hallarda ayrı-ayrı formalaşdırılır:

8.3.1. idxal olunmuş məhsul partiyalarında eyni obyektdə istehsal və ya emal olunmuş birdən çox məhsul növü olduqda - hər bir məhsul növü üçün;

8.3.2. idxal olunmuş məhsul partiyalarında birdən çox obyektdə istehsal və ya emal olunmuş eyni məhsul növü olduqda - hər bir obyektdə istehsal və ya emal olunan məhsul növü üçün.

8.4. İdxal əməliyyatı tarixçəsi ilk dəfə yaradıldıqda və ya fiziki nəzarət tədbirləri nəticəsində uyğunsuzluq aşkarlandıqda məhsul növləri müsbət idxal əməliyyatı tarixçəsi yarananadək eynilik və fiziki nəzarət tədbirlərinə cəlb olunur.

8.5. Müsbət idxal əməliyyatı tarixçəsi məhsul növlərinin risk balından asılı olaraq aşağıdakı qaydada formalaşır:

8.5.1. risk balı 1 olan məhsul növləri üzrə - 1 fiziki nəzarət tədbirinin nəticəsi uyğun olduqda;

8.5.2. risk balı 2 olan məhsul növləri üzrə - 2 ardıcıl fiziki nəzarət tədbirinin nəticələri uyğun olduqda;

8.5.3. risk balı 3 olan məhsul növləri üzrə - 3 ardıcıl fiziki nəzarət tədbirinin nəticələri uyğun olduqda.

8.6. Müsbət idxal əməliyyatı tarixçəsi formalaşmamış və bununla bağlı eynilik və fiziki nəzarətə cəlb edilmiş məhsul növünə tətbiq edilən fiziki nəzarətin nəticələri müəyyən edilmədən əvvəl, eyni idxalatçı tərəfindən eyni obyektdə istehsal və ya emal olunan eyni məhsul növünün idxalı ilə bağlı yeni müraciət daxil olduqda həmin məhsul növünə eynilik və fiziki nəzarət tədbirləri tətbiq olunur.

8.7. Müsbət idxal əməliyyatı tarixçəsi formalaşdıqdan sonra məhsul növləri aşağıda nəzərdə tutulan dövriliklə eynilik və fiziki nəzarət tədbirlərinə cəlb edilir:

8.7.1. risk balı 1 olan məhsul növləri üzrə hər 100 idxal əməliyyatının təsadüfi seçim yolu ilə müəyyənləşdirilən ən çoxu 12 faizi;

8.7.2. risk balı 2 olan məhsul növləri üzrə hər 100 idxal əməliyyatının təsadüfi seçim yolu ilə müəyyənləşdirilən ən çoxu 17 faizi;

8.7.3. risk balı 3 olan məhsul növləri üzrə hər 100 idxal əməliyyatının təsadüfi seçim yolu ilə müəyyənləşdirilən ən çoxu 34 faizi.

## 9. Qida və yem məhsullarının tranzit daşıması

9.1. Aşağıdakı hallarda qida və yem məhsullarının Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına gömrük orqanı tərəfindən icazə verilmir:

9.1.1. Agentlik tərəfindən xüsusi təhlükəli insan və heyvan xəstəliklərinin, zərərverici orqanizmlərin yayılması səbəbindən xarici ölkələrdən idxal olunan qida və yem məhsullarına dair qadağa və digər məhdudlaşdırıcı tədbirlər barədə qərarlar qəbul edildikdə;

9.1.2. məhsulların daşındığı nəqliyyat vasitələrinin yük yerləri üzərində gömrük plombları toxunulmaz və bütöv olmadıqda;

9.1.3. məhsullara dair Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların tövsiyələrinə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərə əsasən tərtib olunmuş nümunəvi formaya uyğun sənədlər (sertifikatlar) təqdim edilmədikdə.

9.2. Qida və yem məhsullarının gətirildiyi nəqliyyat vasitəsindən gömrük anbarına saxlanılması üçün boşaldılması, digər bir və ya bir neçə nəqliyyat vasitəsinə yüklənilməsi Agentliyin və gömrük orqanının səlahiyyətli nümayəndələrinin iştirakı ilə həyata keçirilir.

9.3. Bu Qaydanın 9.2-ci bəndində nəzərdə tutulmuş hallarda qida və yem məhsullarına münasibətdə sənəd, eynilik və fiziki nəzarət tədbirləri həyata keçirilir.

9.4. Qida və yem məhsulları bir və ya bir neçə nəqliyyat vasitəsinə yükləndikdən sonra Agentliyin səlahiyyətli nümayəndəsi müvafiq sənədləri (sertifikatları) yoxlayaraq onların etibarlılığını möhürü ilə təsdiqləyir.

9.5. Fiziki nəzarət tədbirləri nəticəsində Agentlik tərəfindən məhsullarda qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələbləri ilə bağlı uyğunsuzluq aşkar edildikdə, Agentliyin yazılı rəyi əsasında həmin məhsulların ixracatçı ölkəyə geri qaytarılması və ya məhv edilməsi gömrük orqanı tərəfindən təmin edilir.

## 10. İdxal olunmuş məhsullara nəzarət tədbirlərinin nəticələri

10.1. Aparılan nəzarət tədbirləri nəticəsində Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə cavab vermədikdə və təhlükəli hesab edildikdə Agentlik tərəfindən həmin məhsulların utilizasiyası, Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılması və ya məhv edilməsi haqqında qərar qəbul edilir və idxalatçıya və ya onun səlahiyyətli nümayəndəsinə, habelə gömrük orqanına bu barədə 1 (bir) gün müddətində kağız və ya elektron formada məlumat verilir.

10.2. Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılması haqqında qərar qəbul edilmiş təhlükəli qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından 10 (on) gün müddətində kənara çıxarılmadıqda, Qanunun 30.9-cu maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq 10 (on) gün müddətində məhv edilir.

10.3. Qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların utilizasiyası, Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlarından kənara çıxarılması və ya məhv edilməsi ilə bağlı yaranan xərclər idxalatçının və ya onun səlahiyyətli nümayəndəsinin hesabına ödənilir.

10.4. Barəsində bu Qaydanın 10.1-ci bəndində nəzərdə tutulmuş qərar qəbul edilmiş partiyaya aid məhsulların dövriyyəsinə yol verilmir.

10.5. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar qida təhlükəsizliyi sahəsində müəyyən olunmuş tələblərə cavab verdikdə, Agentlik tərəfindən bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən olunmuş formada idxal sağlamlıq aktı elektron qaydada tərtib edilir və məhsul üzərində sərəncam vermək üçün idxalatçıya təqdim edilir.

10.6. İdxal sağlamlıq aktının dublikatının verilməsi, yenidən rəsmiləşdirilməsi, ləğv edilməsi, idxal sağlamlıq aktının verilməsi və bunun üçün dövlət rüsumunun ödənilməsi qaydaları “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

10.7. İdxal sağlamlıq aktı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada 7 (yeddi) iş günündən gec olmayaraq verilir.

10.8. İdxal sağlamlıq aktı verilməsindən aşağıdakı hallarda imtina edilir:

10.8.1. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsi ilə müəyyən edilmiş hallarda;

10.8.2. aparılan nəzarət tədbirləri nəticəsində Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsullar qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə cavab vermədikdə.

10.9. İdxal sağlamlıq aktının verilməsindən imtina edildikdə, Agentlik müraciətin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq, idxal sağlamlıq aktının verilməsindən imtina haqqında inzibati akt qəbul edir. Həmin inzibati akt qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində idxalatçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir, habelə idxalatçının elektron kabinetinə (elektron kabinet vasitəsilə müraciət edildiyi hallarda) göndərilir, həmçinin gömrük orqanına bu barədə 1 (bir) gün müddətində kağız və ya elektron formada məlumat verilir.

10.10. İdxalatçı Agentlik tərəfindən bu Qaydaya uyğun olaraq qəbul edilən qərar və hərəkətlərdən (hərəkətsizlikdən) 10 (on) gün müddətində inzibati və məhkəmə qaydasında şikayət verə bilər.

“Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması Qaydası”na
**1 nömrəli əlavə**

**QİDA VƏ YEM MƏHSULLARI, HABELƏ QİDA MƏHSULLARI İLƏ TƏMASDA OLAN MATERİAL VƏ MƏMULATLAR GÖMRÜK ƏRAZİSİNƏ GƏTİRİLMƏZDƏN ƏVVƏL GÖNDƏRİLƏN ELEKTRON BİLDİRİŞ №**

| | |
|---|---|
| 1. Bildirişin nömrəsi: | 2. Bildirişin göndərilmə tarixi və saatı: |
| 3. İdxalatçı barədə məlumat (hüquqi şəxs olduqda hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı, hüquqi ünvanı və fəaliyyət ünvanı (hüquqi ünvanından fərqli olduqda), elektron poçt ünvanı və əlaqə telefonları, VÖEN-i, fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumat, fəaliyyət ünvanı (hüquqi ünvanından fərqli olduqda), elektron poçt ünvanı və əlaqə telefonları, VÖEN-i): | 4. İdxalatçının qeydiyyatına və ya təsdiqinə dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın nömrəsi: |
| 5. İdxalatçının bildirişi göndərən səlahiyyətli nümayəndəsi olduqda onun barədə məlumat (soyadı, adı, atasının adı və qeydiyyat ünvanı, elektron poçt ünvanı, əlaqə telefonları): | 6. İxracatçı ölkə: |
| 7. İxracatçının adı və ünvanı: | 8. Dövlət sərhəd buraxılış məntəqəsi: |
| 9. Yüklənmə ünvanı: | 10. Gömrük rəsmiləşdirilməsinin aparılacağı yer: |
| 11. Yükün boşaldılacağı ünvan: | 12. Nəqliyyat vasitəsinin növü: |
| 12.1 Nəqliyyat vasitəsinin (o cümlədən qoşqunun) qeydiyyat nömrəsi: | 13. İdxal və ya təkrar idxal olması barədə məlumat: |
| 14. Məhsulun gömrük ərazisinə çatmasının nəzərdə tutulan tarixi: | 15. Qablaşdırmanın ümumi sayı: |

| | | |
|---|---|---|
| 16. Yükün çəkisi: | 16.1. Xalis çəki: | 16.2. Qablaşdırma çəkisi: |

**MƏHSUL HAQQINDA MƏLUMAT**

| | | |
|---|---|---|
| 1. XİF MN kod: | 2. Məhsulun növü: | 3. Məhsulun adı (əmtəə nişanı): |

| | | | |
|---|---|---|---|
| 4. Məhsulun qeydiyyat nömrəsi (tələb olunduqda): | 5. Partiyanın nömrəsi: | 6. Qablaşdırma növü: | 7. Qablaşdırma sayı |
| 8. Xalis çəki: | 9. Qablaşdırma çəkisi: | 10. İstehsal tarixi: | 11. Son istifadə tarixi: |

| | | |
|---|---|---|
| 12. Yararlılıq müddəti: | 13. İstehsalçının adı: | 14. İstehsal və ya emal edildiyi obyektin ünvanı: |

| | |
|---|---|
| 15. İstehsal və emal edildiyi qida obyektinin təsdiq nömrəsi (tələb olunduqda): | 16. Daşınma və saxlanma şəraiti: |

| | | |
|---|---|---|
| 17. İstifadə təyinatı: | 18. Mənşə ölkəsi: | 19. Mənşə sertifikatının nömrəsi və tarixi: |
| 20. Məhsula dair hesab-fakturanın (invoysun) nömrəsi və tarixi: | 21. Alqı-satqı müqaviləsinin nömrəsi və tarixi: | 22. Baytarlıq sertifikatının nömrəsi və tarixi (baytarlıq nəzarətinə aid olduğu halda): |
| 23. Fitosanitar sertifikatın nömrəsi və tarixi (fitosani-tar nəzarətinə aid olduğu halda): | 24. Məhsulun təhlükəsizliyini təsdiq edən sənədin nöm-rəsi və tarixi (tələb olunduğu halda): | 25. Azərbaycan dilində etiketin mövcudluğu barədə qeyd: |

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya sistemi – AQTİS
**Səlahiyyətli nümayəndə:**

**QEYD.** “Elektron imza və elektron sənəd” haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

“Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması Qaydası”na

**2 nömrəli əlavə**

| **Ünvan:** | **AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK ƏRAZİSİNƏ İDXAL OLUNMUŞ QİDA VƏ YEM MƏHSULLARI, HABELƏ QİDA MƏHSULLARI İLƏ TƏMASDA OLAN MATERİAL VƏ MƏMULATLARA DAİR *İDXAL SAĞLAMLIQ AKTI №*** | |
|---|---|---|
| 1. Aktın nömrəsi: | 2. Aktın verilmə tarixi və saatı: | |
| 3. İxracatçı ölkə: | 4. İxracatçının adı və ünvanı: | |
| 5. İdxalatçı barədə məlumat (hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı (hüquqi ünvanından fərqli olduqda), vergi ödəyicisinin eyniləşdirmə nömrəsi): | | |
| 6. İdxalatçının qeydiyyat (təsdiq) nömrəsi: | 7. Yükün boşaldılacağı ünvan: | |
| 8. Nəqliyyat vasitəsinin növü: | 8.1. Nəqliyyat vasitəsinin (o cümlədən qoşqunun) qeydiyyat nömrəsi: | |
| 9. Yükün çəkisi: | 9.1. Xalis çəki | 9.2. Qablaşdırma çəkisi |
| 10. Qablaşdırmanın ümumi sayı: | | |
| **MƏHSUL HAQQINDA MƏLUMAT** | | |
| 1. Məhsulun adı (əmtəə nişanı): | 2. XİF MN kodu: | 3. Mənşə ölkəsi: |
| 4. İstehsalçının adı: | 5. İstehsal və ya emal edildiyi obyektin ünvanı: | |
| 6. İstehsal və emal edildiyi obyektin təsdiq nömrəsi (tələb olunduqda): | | 7. Qablaşdırma növü: |
| 8. Qablaşdırma sayı: | 9. Xalis çəki: | 10. Qablaşdırma çəkisi: |
| 11. Partiyanın nömrəsi: | 12. İstehsal tarixi: | 13. Son istifadə tarixi: |
| 14. Yararlılıq müddəti: | 15. Saxlanma şəraiti: | 16. İstifadə təyinatı: |
| ***Bu idxal sağlamlıq aktı təsdiq edir ki, aparılan nəzarət tədbirlərinə əsasən aktda qeyd olunan məhsul (məhsullar) qida təhlükəsizliyi sahəsində tələblərə UYĞUNDUR.*** | | |
| **Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin səlahiyyətli nümayəndəsi:** | **İmza:**<br><br>**M.Y.** | |
| | | |

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya sistemi – AQTİS
**Səlahiyyətli nümayəndə:**

**QEYD.** “Elektron imza və elektron sənəd” haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

“Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması Qaydası”na 2 nömrəli əlavə

“Azərbaycan Respublikasının gömrük ərazisinə qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı qaydası, həmin məhsul, material və məmulatlar gömrük ərazisinə gətirilməzdən əvvəl göndərilən elektron bildirişin forması və təqdim edilmə müddətləri, qida və yem məhsullarının tranzit daşıması Qaydası”na

**3 nömrəli əlavə**

## Qida təhlükəsizliyi nəzarətinə aid edilən məhsulların risk balı üzrə Təsnifatı

| Sıra №-si | Malların adları və ya kateqoriyaları | XİF MN üzrə kod | Risk balı |
|---|---|---|---|
| 1. | İribuynuzlu mal-qara ətinin təzə və ya soyudulmuş cəmdəkləri və şaqqaları | 0201 10 | 3 |
| 2. | İribuynuzlu mal-qara ətinin təzə və ya soyudulmuş sümüklü parçaları | 0201 20 | 3 |
| 3. | İribuynuzlu mal-qara ətinin təzə və ya soyudulmuş sümüksüz parçaları | 0201 30 | 3 |
| 4. | İribuynuzlu mal-qara ətinin dondurulmuş cəmdəkləri və şaqqaları | 0202 10 | 3 |
| 5. | İribuynuzlu mal-qara ətinin dondurulmuş sümüklü digər parçaları | 0202 20 | 3 |
| 6. | İribuynuzlu mal-qara ətinin dondurulmuş sümükdən ayrılmış əti | 0202 30 | 3 |
| 7. | Təzə və ya soyudulmuş donuz ətinin cəmdəkləri və şaqqaları | 0203 11 | 3 |

| | | | |
|---|---|---|---|
| 8. | Təzə və ya soyudulmuş donuz ətinin sümüklü budları, kürəkləri və onların parçaları | 0203 12 | 3 |
| 9. | Təzə və ya soyudulmuş donuz ətinin digər hissələri | 0203 19 | 3 |
| 10. | Dondurulmuş donuz ətinin cəmdəkləri və şaqqaları | 0203 21 | 3 |
| 11. | Dondurulmuş donuz ətinin sümüklü budları, kürəkləri və onlardan parçalar | 0203 22 | 3 |
| 12. | Dondurulmuş donuz ətinin digər hissələri | 0203 29 | 3 |
| 13. | Təzə və ya soyudulmuş quzu ətinin cəmdəkləri və şaqqaları | 0204 10 | 3 |
| 14. | Təzə və ya soyudulmuş qoyun ətinin cəmdəkləri və şaqqaları | 0204 21 | 3 |
| 15. | Təzə və ya soyudulmuş qoyun ətinin digər sümüklü parçaları | 0204 22 | 3 |
| 16. | Təzə və ya soyudulmuş sümüksüz qoyun əti | 0204 23 | 3 |
| 17. | Dondurulmuş quzu ətinin cəmdəkləri və şaqqaları | 0204 30 | 3 |
| 18. | Dondurulmuş qoyun ətinin cəmdəkləri və şaqqaları | 0204 41 | 3 |
| 19. | Dondurulmuş qoyun ətinin sümüklü digər parçaları | 0204 42 | 3 |
| 20. | Dondurulmuş sümüksüz qoyun əti | 0204 43 | 3 |
| 21. | Təzə, soyudulmuş və ya dondurulmuş keçi əti | 0204 50 | 3 |
| 22. | Atların, ulaqların, qatırların və ya at qatırlarının təzə, soyudulmuş və ya dondurulmuş əti | 0205 00 | 3 |
| 23. | İribuynuzlu mal-qaranın təzə və ya soyudulmuş qida üçün yararlı olan ətinin əlavə məhsulları | 0206 10 | 3 |
| 24. | Dondurulmuş iribuynuzlu mal-qaranın dilləri | 0206 21 | 3 |
| 25. | Dondurulmuş iribuynuzlu mal-qaranın qaraciyəri | 0206 22 | 3 |
| 26. | Dondurulmuş iribuynuzlu mal-qaranın qida üçün yararlı olan ətinin digər əlavə məhsulları | 0206 29 (0206 29 100 0 istisna olmaqla) | 3 |
| 27. | Donuzların təzə və ya soyudulmuş qida üçün yararlı olan ətinin əlavə məhsulları | 0206 30 | 3 |
| 28. | Donuzların dondurulmuş qaraciyəri | 0206 41 | 3 |
| 29. | Donuzların dondurulmuş qida üçün yararlı olan ətinin digər əlavə məhsulları | 0206 49 | 3 |
| 30. | Qoyunun, keçinin, atların, ulaqların, qatırların və at qatırlarının təzə və ya soyudulmuş qida üçün yararlı olan ətinin əlavə məhsulları | 0206 80 (0206 80 100 0 istisna olmaqla) | 3 |
| 31. | Qoyunun, keçinin, atların, ulaqların, qatırların və at qatırlarının dondurulmuş qida üçün yararlı olan ətinin əlavə məhsulları | 0206 90 (0206 90 100 0 istisna olmaqla) | 3 |
| 32. | Ev toyuqlarının *(Gallus domesticus)* hissələrə ayrılmamış, təzə və ya soyudulmuş əti | 0207 11 | 3 |
| 33. | Ev toyuqlarının *(Gallus domesticus)* hissələrə ayrılmamış, dondurulmuş əti | 0207 12 | 3 |
| 34. | Ev toyuqlarının *(Gallus domesticus)* təzə və ya soyudulmuş cəmdək hissələri və qida üçün yararlı ətin əlavə məhsulları | 0207 13 | 3 |
| 35. | Ev toyuqlarının *(Gallus domesticus)* dondurulmuş cəmdək hissələri və qida üçün yararlı ətin əlavə məhsulları | 0207 14 | 3 |
| 36. | Hindtoyuğunun hissələrə ayrılmamış, təzə və ya soyudulmuş əti | 0207 24 | 3 |
| 37. | Hindtoyuqlarının hissələrə ayrılmamış dondurulmuş əti | 0207 25 | 3 |
| 38. | Hindtoyuğunun təzə və ya soyudulmuş cəmdək hissələri və qida üçün yararlı ətin əlavə məhsulları | 0207 26 | 3 |
| 39. | Hindtoyuğunun dondurulmuş cəmdək hissə-ləri və qida üçün yararlı ətin əlavə məhsulları | 0207 27 | 3 |
| 40. | Ördəklərin hissələrə ayrılmamış, təzə və ya soyudulmuş əti | 0207 41 | 3 |
| 41. | Ördəklərin hissələrə bölünməmiş, dondurul-muş əti | 0207 42 | 3 |

| | | | |
|---|---|---|---|
| 42. | Ördəklərin təzə və ya soyudulmuş yağlı qaraciyəri | 0207 43 | 3 |
| 43. | Ördəklərin təzə və soyudulmuş cəmdək hissələri və qida üçün yararlı ətin əlavə məhsulları | 0207 44 | 3 |
| 44. | Ördəklərin dondurulmuş cəmdək hissələri və qida üçün yararlı ətin əlavə məhsulları | 0207 45 | 3 |
| 45. | Qazların hissələrə ayrılmamış, təzə və ya soyudulmuş əti | 0207 51 | 3 |
| 46. | Qazların hissələrə bölünməmiş, dondurulmuş əti | 0207 52 | 3 |
| 47. | Qazların təzə və ya soyudulmuş yağlı qaraciyəri | 0207 53 | 3 |
| 48. | Qazların təzə və ya soyudulmuş cəmdək hissələri və qida üçün yararlı ətin əlavə məhsulları | 0207 54 | 3 |
| 49. | Qazların dondurulmuş cəmdək hissələri və qida üçün yararlı ətin əlavə məhsulları | 0207 55 | 3 |
| 50. | Firəngtoyuqlarının təzə, soyudulmuş və ya dondurulmuş əti və qida üçün yararlı ətin əlavə məhsulları | 0207 60 | 3 |
| 51. | Evdovşanlarının və ya dovşanlarının təzə, soyudulmuş və ya dondurulmuş əti və ətin qida üçün yararlı olan əlavə məhsulları | 0208 10 | 3 |
| 52. | Primatların təzə, soyudulmuş və ya dondurulmuş əti və ətin qida üçün yararlı olan əlavə məhsulları | 0208 30 | 3 |
| 53. | Balinaların, delfinlərin və dəniz donuzlarının (Cetacea məməlilər dəstəsi), lamantinlərin və dyoqonların (Sirenia məməlilər dəstəsi), suitilərin, dəniz şirlərinin və morjların (Pinnipedia yarımdəstəsinin məməliləri) təzə, soyudulmuş və ya dondurulmuş əti və ətin qida üçün yararlı olan əlavə məhsulları | 0208 40 | 3 |
| 54. | Sürünənlərin (ilanlar və tısbağalar da daxil olmaqla) təzə, soyudulmuş və ya dondurulmuş əti və ətin qida üçün yararlı olan əlavə məhsulları | 0208 50 | 3 |
| 55. | Dəvələrin və dəvəkimilər fəsiləsinin digər heyvanlarının (Camelidae) təzə, soyudulmuş və ya dondurulmuş əti və ətin qida üçün yararlı olan əlavə məhsulları | 0208 60 | 3 |
| 56. | Təzə, soyudulmuş və ya dondurulmuş digər ətlər və ətin qida üçün yararlı olan əlavə məhsulları (ev göyərçinləri, ov heyvanları, şimal maralı və digərləri) | 0208 90 | 3 |
| 57. | Əridilməmiş və ya digər üsulla hasil edilməmiş, təzə, soyudulmuş, dondurulmuş, duzlu, duzlu suda olan, qurudulmuş və ya hisə verilmiş yavan ətdən ayrılmış donuz piyi | 0209 10 | 3 |
| 58. | Əridilməmiş və ya digər üsulla hasil edilməmiş, təzə, soyudulmuş, dondurulmuş, duzlu və ya duzlu suda olan qurudulmuş və ya hisə verilmiş yavan ətdən ayrılmış ev quşunun piyi | 0209 90 | 3 |
| 59. | Duzlu, duzlu suda olan, qurudulmuş və ya hisə verilmiş donuz ətinin sümüklü budları, kürəkləri və onların parçaları | 0210 11 | 3 |
| 60. | Duzlu, duzlu suda olan, qurudulmuş və ya hisə verilmiş donuz ətinin döş hissəsi və onun parçaları | 0210 12 | 3 |
| 61. | Duzlu, duzlu suda olan, qurudulmuş və ya hisə verilmiş donuz ətinin digər hissələri | 0210 19 | 3 |
